KƏRİM TAHİROV,
Azərbaycan Milli Kitabxanasının direktoru,
Əməkdar mədəniyyət işçisi, professor
ktahirov@anl.az

ƏDİBƏ İSMAYILOVA,
Azərbaycan Milli Kitabxanasının direktor müavini,
Əməkdar mədəniyyət işçisi, AMEA-nın doktorantı
oxucu_xidmet@anl.az

ELEKTRON KATALOQUN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI MİLLİ KİTABXANADA ELEKTRONLAŞMANIN ƏSAS İSTİQAMƏTİ KİMİ

Xülasə: *Məqalədə Azərbaycan Milli Kitabxanasında elektron kataloqun yaradılmasından və bu işin inkişafı üçün həyata keçirilən tədbirlərdən bəhs edilir.*
Açar söz: *elektron kitabxana, elektron каталог,VTLS/VİRTUA,analitik - məlumat bazası,virtual sifariş*

Hazırda bütün dünyada kitabxana proseslərinin kompleks avtomatlaşdırılması tələblərinə cavab verən bir neçə avtomatlaşdırılmış kitabxana-informasiya sistemi mövcuddur ki, bunlardan biri də ABŞ-ın VTLS/VİRTUA proqramıdır. Sistem ən vacib şəbəkə imkanlarına malikdir. Sistemin mükəmməlliyi ondan həm lokal şəbəkələrdə, həm də İnternetdə istifadə etməyə imkan verir. Ona görə də bu sistem milli, akademik, kütləvi və fondunda milyonlarla nəşr saxlanılan iri həcmli kitabxanalarda istifadə etmək üçün nəzərdə tutulmuşdur.

Azərbaycan Milli Kitabxanasında avtomatlaşdırılmış kitabxana-informasiya sistemi – VİRTUA proqramı tətbiq olunmuşdur. Buraya elektron kataloqun tərtibi, elektron kitabxananın təşkili, oxucuların qeydiyyatı, kitab verilişi, kitab fondunun komplektləşdirilməsi, milli biblioqrafiyanın və respublikanın bütün iri kitabxanalarının toplu kataloqunun yaradılması, yəni bütün kitabxana proseslərinin avtomatlaşdırılması modulları daxildir. Kitabxanada elektron kataloq beynəlxalq maşınla oxunan MARC-21 formatında işlənilmişdir.

Milli Kitabxanada avtomatlaşdırmanın, kompüterləşmənin inkişafında elektron kataloqun, eləcə də elektron tammətnli resursların yaradılmasının ardı-

cıl, intensiv bir proses şəklini alması mərhələsi 2006-cı ilə təsadüf edir. Bu mərhələdə həyata keçirilən ilk tədbir elektron kataloqun potensial imkanlarından istifadə etmək, onun fasiləsiz olaraq funksiya göstərməsini təşkil etmək idi. Bu işi həyata keçirmək üçün 2006-cı ildə Milli Kitabxanaya təcrübəli mütəxəssislər dəvət edilmiş, VTLS İnc. Korporasiyasının vitse-prezidenti, korporasiyanın Avropa üzrə menecer-direktoru Cek Bazuzi və korporasiyanın Avropa üzrə eksperti Yana İlavska Kitabxananı ziyarət edərək treninqlər keçirməklə yanaşı, həmin sahədə işçilərə praktik məsləhətlər vermişlər. Elə həmin ildə (2006-cı ildə) ümumilikdə 12896 biblioqrafik yazı Kitabxananın elektron kataloqunun verilənlər bazasına daxil edilmişdir ki, bu da 78351 min nüsxə kitabı əhatə edirdi.

Kitabxanada elektron kataloqun yaradılmasında "Elektron kataloqun formalaşdırılması" şöbəsinin böyük əhəmiyyəti olmuşdur. Şöbə elektron kataloqda biblioqrafik yazıları Virtua proqram təminatında, MARC 21 formatında təqdim edir və verilənlər bazası yaradıldıqda ən yeni biblioqrafik nəşrlərdən istifadə olunur ki, bu da təsvirin tam dolğun şəkildə aparılmasına imkan verir.

Biblioqrafik yazılar əsas biblioqrafik məlumatları: təsvirin başlığını, təşkilatların adlarını və unifikasiya sərlövhələrini, nəşr haqqında məlumatları, buraxılış məlumatlarını, fiziki xüsusiyyətləri, həmçinin, elmi kitabxanalar üçün KBT və UOT cədvəllərinin tam nəşrinin təsnifat indekslərini və Azərbaycan Milli Kitabxanasının (AMK) predmet rubrikalarını, İSBN –i, nəşrin qiymətini, tirajını və bundan əlavə, nüsxələrin sayı və həmin nüsxələrin yerləşdiyi yer haqqında kodlaşdırılmış məlumatları ehtiva edir.

2006-cı ildə elektron biblioqrafik resursların genişləndirilməsi istiqamətində həyata keçirilən digər bir müsbət yenilik Kitabxananın elektron kataloqunun distant korporativ toplu kataloq keyfiyyəti alması idi. Bakı şəhərinin və Xətai, Quba rayon MKS-lərinin mərkəzi kitabxanalarının əməkdaşları distant olaraq öz fondlarında olan ədəbiyyat barədə biblioqrafik məlumatları Milli Kitabxananın elektron kataloquna daxil edə, həm kitabxana işçiləri, həm də istifadəçilər internet üzərindən öz fondlarında və Milli Kitabxananın fondunda olan kitabları bu elektron kataloqda axtara bilirdi. Həmin ildən etibarən istifadəçilər Kitabxananın elektron kataloqundakı keçidlərdən istifadə etməklə ABŞ Konqres Kitabxanası və Rusiya Dövlət Kitabxanasının elektron kataloqundan istifadə imkanları əldə etmişlər. Bu isə kitabxanaların biri-birlərinin elektron kataloqlarından bəhrələnmələrinə şərait yaratmışdı .

Uzun müddət davam edən hazırlıq işlərindən sonra 17 may 2006-cı ildə Mədəniyyət naziri Əbülfəs Qarayevin, həmin nazirliyin əməkdaşlarının, kitabxana ictimaiyyətinin, ziyalıların iştirakı ilə Kitabxananın internet səhifəsi və elektron kataloqunun rəsmi təqdimat mərasimi keçirildi.

2007-ci ilin sonuna qədər 33 369 adda biblioqrafik yazı elektron kataloqa daxil edildi ki, bu da 145 496 nüsxə ədəbiyyatı əhatə edirdi.

2008-ci ildə elektron kataloqdan istifadə edən oxucuların miqdarı 43 458 nəfər təşkil etmişdi. Kitabxananın elektron kataloqu distant korporativ toplu kataloqunun əhatə dairəsini genişləndirərək Bakının Xətai və Quba rayonlarının ardınca, Balakən rayonu MKS-ni, Mərdəkan Mədəniyyət Sarayı Kitabxanasını, İsmayıllı rayonu Heydər Əliyev Muzey Kitabxanasını, Moskva Dövlət Universitetinin Bakı filialının kitabxanasını əhatə etmişdir. Həmin kitabxanalar Milli Kitabxananın elektron kataloquna qoşularaq öz elektron kataloqlarını yaratmış və biblioqrafik verilənlər bazasına biblioqrafik yazıları daxil etmək və axtarış aparmaq imkanları qazanmışdı.

2009-cu ildə 7689 adda Azərbaycan və rus dilində olan cari ədəbiyyatın biblioqrafik yazısı, eyni zamanda Azərbaycan və rus dillərində olan 825 adda dissertasiyanın, 544 adda avtoreferatın biblioqrafik yazıları məlumat bazasına daxil edilmişdir.

Analitik elektron məlumat bazasının təşkili şöbəsi 2009-cu il ərzində respublikamıza dair və ümumi xarakterli məqalələrin Azərbaycan və rus dilində 25864 (21 952-si Azərbaycan dilində, 3912-i rus dilində) analitik-biblioqrafik yazısını Elektron kataloqun məlumat bazasına daxil etmişdir.

Elektron bazada yığılan materiallar əsasında mədəniyyət, incəsənət və turizmə aid materiallar ayrıca toplanaraq "Mədəniyyət, incəsənət və turizm haqqında yeni ədəbiyyat" adı altında ayda bir dəfə 50 nüsxə tirajla nəşr edilmişdir.

Bəhs edilən dövrdə Kitabxananın fəaliyyətində azərbaycançılığa dair məqalələrin elekronlaşdırılması işi də həyata keçirilməyə başlamışdır. Belə ki, bu işlə məşğul olan Diyarşünaslıq elmi biblioqrafiya şöbəsi öz işini yeni informasiya texnologiyaları əsasında qurmuş, istifadəçiləri elektron kataloqda əks olunmuş diyarşünaslıq xarakterli məqalələrin təsviri ilə təmin etmişdir. 2008-ci ildə şöbə 1990-2007-ci illərin diyarşünaslıq materiallarını Kitabxananın elektron kataloquna daxil etməklə məşğul olmuşdur. Bu müddət ərzində iqtisadiyyat, Azərbaycan tarixi və başqa elm sahələrindən materiallar seçilmiş, elektron kataloqa 500-ə yaxın diyarşünaslıq materialı daxil edilmişdir.

Azərbaycan ədəbiyyatının arxivi şöbəsi 2009-cu ilin iyun ayından başlayaraq arxiv fondunu elektron kataloqa köçürməyə başlamışdı. Həmin il 1831-1904-cü illəri əhatə edən 140 ədəd əski Azərbaycan əlifbasında, 1930-cu ilin 50 ədəd, 1989-cu ilin 279 ədəd, 1990-cı ilin 450 ədəd nəşrinin 919 biblioqrafik yazısı elektron kataloqun məlumat bazasına daxil edilmişdir.

2010-cu ildə Milli Kitabxananın elektron kataloqunun tədricən korporativ-toplu kataloqa çevrilməsi prosesi aparılmışdı. Belə ki, əvvəlki illərdə Kitabxa-

nanın elektron kataloquna qoşulmuş kitabxanalar bu korporativ toplu kataloqda iştiraklarını davam etdirmişlər. Onların əməkdaşları özlərinin Elektron kataloqlarını yaratmaq üçün kitabxanada iki həftəlik, bir aylıq və iki aylıq istehsalat təcrübəsində olmuşlar.

Analitik elektron məlumat bazasının təşkili şöbəsi 2010-cu il ərzində respublikamıza dair və ümumi xarakterli məqalələrin Azərbaycan və rus dilində 27 841 (21 825-i Azərbaycan dilində, 6 016-sı rus dilində) analitik-biblioqrafik yazısını Elektron kataloqun analitik verilənlər bazasına daxil etmişdir.

Müvafiq illərə dair hesabatlardan məlum olur ki, Diyarşünaslıq elmi biblioqrafiya şöbəsi də öz işini təkmilləşdirərək istifadəçiləri elektron kataloqda əks olunmuş diyarşünaslıq xarakterli məqalələrin təsviri ilə təmin etmişdir. Belə ki, şöbə 2009-cu ildə 1990-2007-ci illərin diyarşünaslıq materiallarını Virtua sistemi ilə kitabxananın elektron kataloquna köçürülməsi işini davam etdirmişdir. Bu müddət ərzində elektron kataloqa şöbə tərəfindən 11 223 biblioqrafik yazı daxil edilmişdir.

2010-cu ildə ildə Azərbaycan ədəbiyyatının arxivi şöbəsində arxiv fondunun elektron kataloqa köçürülməsi işi davam etdirilərək 1905-1922, 1989, 1990-cı illəri əhatə edən 495 nüsxə əski Azərbaycan əlifbasında, 1988-ci ilə aid 100 kitab, 1989-cu ilə aid 1042 kitab, cəmi 1637 kitabın biblioqrafik yazısı elektron kataloqun məlumat bazasına daxil edilmişdir. Xarici ədəbiyyat və beynəlxalq kitab mübadiləsi şöbəsi il ərzində 901 biblioqrafik yazını verilənlər bazasına daxil etmişdir.

2011-ci ildə Kitabxananın əməkdaşları Heydər Əliyev Mərkəzinin Elektron kitabxanasının 3500 nüsxədən ibarət fondunu kitabxana təsnifatına uyğun rəflərdə yerləşdirdikdən sonra elektron kitabxanada olan 20 kompüterin İnternetə qoşulmasını təmin etmişlər. Onlar Heydər Əliyev Mərkəzinin Elektron kitabxanasının işçilərinə saytlarda axtarış aparmaq qaydalarını öyrətmişlər.

Kitabxanada elektron kataloqun tətbiq edildiyi 13 il ərzində özündə (2018-ci ilin sonunadək) 197260 kitabı, 11893 dissertasiyanı, 14296 avtoreferatı, 367305 məqaləni, 1892 dövri mətbuatı, 909 kitab məqaləsini, 6790 notu, 328 əlyazma notunu,3215 elektron resursu, 229 səsyazmanı, 194 CD-ROM-u, 182 kartoqrafik materialı, 26 audiokitabı, 2 filmi və 1 audiokasseti əhatə edən 604522 biblioqrafik yazı tərtib edilmişdir. Biblioqrafiyalaşdırma prosesinin tempi isə bəzi illərdə artır, bəzi illərdə isə azalır. Bu isə kitabxananın istehsal proseslərinin qanunauyğunluqları ilə izah edilə bilər. 2018-ci ilin sonunadək Milli Kitabxananın elektron kataloquna daxil edilən biblioqrafik yazıların növlər üzrə miqdarı diaqram 1-də öz əksini tapmışdır.

Diaqram 1



2018-ci ildə kitabxanada 17118 kitab, 334 dissertasiya, 1206 avtoreferat, 32347 məqalə, 548 dövri mətbuat, 285 kitab məqaləsi, 1348 not, 35 əlyazma notu, 1574 elektron resurs, 7 səsyazma, 6 CD-ROM, 10 kartoqrafik material, 1 audiokitab və 1 film olmaqla 54 820 biblioqrafik yazı yaradılaraq elekrtron kataloqun məlumat bazasına daxil edilmişdir.

Milli Kitabxananın elektron kataloquna 2018-ci ildə daxil edilən biblioqrafik yazıların növlər üzrə miqdarı diaqram 2-də öz əksini tapmışdır.

Diaqram 2



Kitabxananın elektron informasiya resurslarının yaradılmasının vacib tərkib hissəsi, fondda olan dövri və ardı davam edən nəşrlərin tərkibinin açılaraq elektron kartotekada əks edilməsidir. Kitabxanada bu istiqamətdə iş 2006-cı ildən başlayaraq ardıcıl olaraq aparılır. 2018-ci ilin sonuna qədər Kitabxananın elektron kartotekasına 367 305 məqalənin biblioqrafik yazısı daxil edilmişdir ki, bunlardan 348 270 adda yazı analitik biblioqrafik yazını əhatə edir. Analitik biblioqrafik yazının yaradılması sahəsində aparılan iş diaqram 3-də əks olunmuşdur. Buradakı rəqəmlərdən görünür ki, elektron kartotekanın yaradılması prosesi 2009-cu ildən daha yüksək temp almışdır və hal-hazırda bu temp qorunub saxlanır. 2018-ci ilin sonuna qədər bu resurs özündə 348 270 adda analitik biblioqrafik yazını əhatə edir.

Diaqram 3



Gətirilən rəqəmlər Kitabxanada biblioqrafik resursların vacib növü olan elektron kataloq-kartoteka sisteminin ardıcıl şəkildə inkişaf etdirildiyini, onun informasiya tutumunun getdikcə artdığını aydın şəkildə göstərir.

Bu bir faktdır ki, müasir kitabxana heç də durğun, statik bir obyekt deyil, əksinə, cəmiyyətin çağırışlarına uyğun olaraq daim inkişaf edən, təkmilləşən sosial institutdur. Burada hər şey dəyişir və inkişaf edir. Bu səbəbdən də buradakı struktur vahidləri, proseslər, metodlar kimi kitabxanada tətbiq edilən avtomatlaşdırma sistemi, proqram təminatı da inkişaf edir. Lakin dünyada yaradılaraq istifadə edilən bütün avtomatlaşdırma təyinatlı proqram vasitələri kimi, bu proqram təminatı da ildən-ilə təkmilləşdirilir, hər il onun daha mükəmməl versiyaları yaradılır, meydana çıxan qüsurlar aradan götürülür. Əgər bir sıra təşkilati, texniki və maliyyə səbəbləri üzündən 2006-cı ilə qədər

Milli Kitabxanada proqram yenilənməsinə, təkmilləşdirməyə o qədər də diqqət yetirilmirdisə, sonrakı dövrdə kitabxana bu məsələni daim diqqətdə saxlayır, hər il şirkətlə əlaqə saxlanılaraq lazımi işlər həyata keçirilir.

2006-cı ildən etibarən istifadəçilər elektron kataloqda lazımi kitabları Kitabxanaya gəlməzdən əvvəl seçərək sifariş vermək imkanı qazanmışdılar. Belə ki, istifadəçi kitabxananın saytına daxil olaraq onlayn xidmət pəncərəsindən istədiyi xidmət növünü (virtual sifariş, metodik xidmət, biblioqrafik sorğu) seçməklə öz sorğusunu və ya sifarişini kitabxanaya göndərə bilir. Bu xidmət növlərinin yaradılması istifadəçilərin sorğularının daha dəqiq və operativ cavablandırılmasına imkan verir.

Kitabxanada elektron kataloqun inkişaf etdirilməsinin mühüm istiqamətlərindən biri də karton formasında olan kataloqun retrokonversiya metodudur. Məlumdur ki, bu metod həyata keçirilən zaman karton kataloq (kartoteka) kartoçkaları skan edilərək şəkil formasında elektron versiyaya keçirilir. Daha sonra xüsusi proqram təminatı ilə kataloq yazısı təhlil edilərək tanınır, yəni, yazının ayrı-ayrı elementlərinin yazının hansı sahəsinə aid olması müəyyən edilir və bu elementlər MARC formatının uyğun sahələrinə transfer edilir.

Milli Kitabxanada da retrokonversiya işi həyata keçirilmişdir, rus dilində ədəbiyyatın sistemli kataloqu retrokonversiya edilmiş, skan olunmuş kartoçkalar elektron bazaya yerləşdirilmişdir.

Milli Kitabxanada karton kataloq (kartoteka) kartoçkalarının retrokonversiyası elektron kataloqun yaradılması prosesini xeyli sürətləndirməyə imkan verir.

Kitabxana 2013-cü ildə tələbatçıların web üzərindən işləməsinə imkan verən yeni Chamo proqramını da almışdır. Chamo yeni, təkmilləşdirilmiş, inkişaf etdirilmiş, oxucu tələbatına uyğun web interfeysidir. Bu proqram oxucunun kitab sifarişini sürətləndirməyə imkan verir. Bu axtarış sistemi vasitəsilə həm müəlliflər, həm sərlövhələr, həm predmet rubrikaları, həm də açar sözlər, simvollar üzrə axtarış aparılması təmin olunmuşdur. Burada həmçinin müxtəlif verilənlər bazaları üzrə – kitabların və dövri mətbuat materiallarının, ümumi və diyarşünaslıq kartotekalarının və digər analitik verilənlər bazalarının materialları üzrə axtarış aparılması mümkündür. Bu sistemin əvvəlki axtarış sistemindən əsas üstünlüyü birpilləli və birbaşa axtarışın aparılması imkanının yaranmasıdır.

2013-cü il sistemin Komplektləşdirmə, Kataloqlaşdırma, Oxucu qeydiyyatı, Kitab verilişi, Axtarış modulu olan OPAC modulları tam şəkildə istismar edilirdi və digər modulların isə tətbiqinə başlanılmasına hazırlıq işləri görülürdü. Həmin il kitabxana öz qüvvəsi hesabına “Virtua”-nın Sistem inzibatçısı

yarımsistemi vasitəsi ilə avtomatlaşdırılmış idarəetmə sisteminin yeni və son versiyasının quraşdırma işlərini başa çatdırmış, kataloq üzrə sistemi oxucular üçün Azərbaycan dilinə tərcümə etmişdir. Həmin il kitabxanada mövcud olan bütün kompüterlərin proqram təminatının təkmilləşdirilməsi məqsədilə köhnə əməliyyat sistemləri dəyişdirilərək yenisi ilə əvəz olunmuşdur. Bəzi kompüterlərin operativ yaddaşı artırılmış və yeni proqramlar yazılmış, oxuculara xidmətin keyfiyyətini artırmaq üçün yeni sistemin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir. Belə ki, oxucu biletlərinin oxucu kartları ilə əvəz olunması prosesinə başlanılmışdır. Oxucuların internetlə təmin olunması məqsədilə, yeni avadanlıq alınaraq, kitabxananın Ümumi oxu zalı Wi-Fi-la təchiz edilmişdir.

Kitabxananın elektron resurslarından istifadəni daha da asanlaşdırmaq üçün Lokal şəbəkədən istifadə üzrə oxu zalında kompüterlər və həmçinin, burada oxucuların kitabxananın elektron resurslarından rahat şəkildə istifadəsi üçün əlavə olaraq planşetlər quraşdırılmışdır.

Kitabxana proseslərinin avtomatlaşdırılmasının, proqram təminatının, kitabxananın saytının təkmilləşdirlməsi istiqamətində işlər 2014-cü ildə də davam etdirilmişdi.

2016-cı ildə isə kitabxanada “Chamo” proqram təminatının tətbiqi üzrə işlər davam etdirilmiş, elektron kataloq-axtarış sistemində axtarış sürətinin və keyfiyyətinin artırılması üçün müəyyən işlər görülmüşdür. Kitabxananın elektron resurslarından istifadənin keyfiyyətinin artırılması məqsədilə yeni “Elektron Kitabxana” web resursu işlənib hazırlanmış və “Chamo” proqramı elektron kataloqa inteqrasiya olunaraq oxucuların istifadəsinə verilmişdir.

Elektron kataloqun saytında bibloqrafik yazıların formata, məzmuna, materialın dilinə, nəşr yerinə, sənədin Kitabxananın hansı struktur vahidində saxlanmasına, predmetinə (aid olduğu bilik sahəsi, açar söz) görə də açılışı verilmişdir. Ən əhəmiyyətlisi budur ki, istifadəçi kursorla bu bölgülərin istənilən bəndinə vurarsa, həmin bəndə dair bütün biblioqrafik təsvirlər açılır.

Elektron kataloqun menyusu sənədlərin bibliqrafik yazılarını ən müxtəlif əlamətlərinə (müəllif, predmet, sərlövhə, mənbənin sərlövhəsi, dərginin sərlövhəsi) görə axtarmağa imkan yaradır. Burada axtarışın ikinci mərhələsi də mümkündür. Hər hansı axtarış əlaməti üzrə tapılmış biblioqrafik yazılar daha sonra bir sıra əlamətlər (sərlövhə, müəllif, nəşr tarixi, sənədin kataloqa daxil edilməsi ardıcıllığı) üzrə çeşidlənə bilər ki, bu da axtarış üçün əlavə imkanlar yaradır.

Elektron kataloqun başlıq üzrə axtarış versiyasından başqa genişləndirilmiş – ətraflı axtarış versiyası axtarış üçün çox geniş imkanlar açır. Burada

axtarışın birinci mərhələsindəki dörd sətirlik axtarış menyusunda "Axtarış terminlərini daxil edin" bəndi vasitəsi ilə sənədi 20 müxtəlif parametri üzrə axtarmaq mükündür. Tapılmış yazılar axtarışın ikinci mərhələsində 6 seçmə parametri (biblioqrafik təsvirin növü, sənədin nəşr yeri, dili, sənədin kitabxananın hansı bölməsində saxlanması) üzrə filtrdən keçirilə bilər. Bu isə tapılmış çox sayda yazıdan sorğuya daha uyğun olanlarını tapmağa imkan yaradır.

Kitabxananın elektron kataloqunun ən maraqlı xüsusiyyətlərindən biri onun ilk səhifəsində biblioqrafik yazıların müxtəlif əlamətlər üzrə verilmiş qruplaşdırılmasının hər birində axtarış imkanının olması ilə yanaşı bu bənd üzrə kataloqda nə qədər biblioqrafik yazının miqdarının göstərilməsidir. Bu deyilənlər kitabxanada Virtuanın potensial imkanlarından istifadə edilməklə mükəmməl bir axtarış sisteminin qurulduğunu sübut edir.

Aparılan islahatların, texniki və proqram təhcizatının həyata keçirilməsi nəticəsində kitabxananın elektron kataloqu artıq müasir tələblərə cavab verən səviyyəyə qədər yüksəlmiş, yaradılan biblioqrafik resurslarla qlobal kitabxana-informasiya məkanına inteqrasiya etmək mümkün olmuşdur.

Kitabxanada ümumilikdə kitabxana-biblioqrafik proseslərin təkmilləşdirilməsi, ilk növbədə elektron kataloq üzrə avtomatlaşdırma sisteminin proqram təminatı mükəmməl bir informasiya axtarış sistemini yaratmağa imkan vermişdir və bu sistem daim təkmilləşdirilir, onun həcmi (əks etdirdiyi sənədlərin miqdarı) intensiv olaraq artır.

Ədəbiyyat

1. Tahirov, K. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: dərs vəsaiti / Kərim Tahirov; elmi red. A.Xələfov; rəyçi.: K.Aslan, P.Kazımi; Azərb. Resp. Təhsil Nazirliyi, BDU.- Bakı: Bakı Universiteti, 2013.- 212 s.
2. Tahirov, K. Müasir dövrdə kitabxanalar üçün yeni çağırışların, yeni ideyaların və yeni tələblərin əsas istiqamətləri / Kərim Tahirov // Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri ("Kitabxanalar üçün yeni çağırışlar, yeni ideyalar, yeni tələblər: kitab, mütaliə, innovasiyalar" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları əsasında (Bakı, 29 sentyabr 2017-ci il).- 2017.- Buraxılış 9.- S.10-16
3. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 2006-2018-ci il üçün hesabatları.

4. İsmayılova, Ə. Oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi / Ədibə İsmayılova; red. K.Tahirov; rəyçi. G.Səfərəliye-va; Azərbaycan Milli Kitabxanası.- Bakı, 2016.- 55 s.
5. İsmayılova, Ə. Azərbaycan Milli Kitabxanasında kitabxana-informasiya xidmətinin formalaşmasının tarixi təcrübəsi / Ədibə İsmayılova // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.- 2018.- № 1 (42).- S.129-134.
6. Исмайлова, А. Электронный каталог: больше возможностей для читателей / Адиба Исмайлова // Гілея: науковий вісник. Збірник наукових праць /Гол. ред. В.М.Вашкевич.- К.: «Видавництво «Гілея», 2018.- Вип. 130 (3).- С.129-131

The creation and development of e-catalog as the keyaspect of electronization in the national library

Resume: *The article provides information about the creation of electronic catalog in Azerbaijan National Library and the measurestaken to develop this process.*

Key words: *e-library, e-catalog, VTLS/VIRTUA, information-analytical database, virtual order*